HAQQIN SÖZÜ - SÖZÜN HAQQI 31 YANVAR 2019-CU İL/ №002 (82)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2 
YANVAR OLAYLARI

3 
HƏYATIMIZI SEVƏK, PİS VƏRDİŞLƏRƏ YOX DEYƏK!

4 
20 YANVAR – AZƏRBAYCAN XALQININ MÜSTƏQİLLİK MÜBARİZƏSİ

7 
AVTOMOBİLLƏRİN TEXNİKİ BAXIŞI HAQQINDA NƏLƏRİ BİLMƏLİYİK

## MAMUKA BAXTADZE İLHAM ƏLİYEVLƏ GÖRÜŞÜB



Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və Gürcüstanın baş naziri Mamuka Baxtadze arasında görüş keçirilib.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Ölkələr arasında həyata keçirilən mühüm qlobal layihələrin əhəmiyyəti qeyd edilib, əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunub.

Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi də aparılıb.

Gürcüstanın xarici işlər naziri David Zalkaliani Mamuka Baxtadze ilə İlham Əliyev arasında Davosda baş tutmuş görüşü şərh edərkən Azərbaycanın Gürcüstanın strateji tərəfdaşı olduğunu bildirib.

O deyib ki, Gürcüstan və Azərbaycan arasında bütün vacib məsələlər üzrə qarşılıqlı dəstək, problemli məsələlərə bağlı isə adekvat yanaşmalar mövcuddur.

"Görüşdə iki ölkə arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq bir daha vurğulanıb. Tərəflər həyata keçirilən birgə layihələrə xüsusi diqqət ayırıblar. Mərkəzi Asiyadan yüklərin cəlb olunması baxımından Gürcüstan və Azərbaycanın nəqliyyat potensialı barədə də müzakirə aparılıb", - deyə D.Zalkaliani bildirib.

XİN başçısının sözlərinə görə, görüşdə həmçinin TANAP və Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinə də toxunulub. "Dünyada böyük rəqabət var. Ona görə də Gürcüstan və Azərbaycan nəqliyyat magistrallarının rəqabətliliyinin saxlanılması üçün birgə çalışmalıdır", - nazir deyib.

## YANVARIN 17-Sİ MATƏM GÜNÜ ELAN OLUNUB

Tbilisidə yaşayış binasında 4 nəfərin ölümünə səbəb olan faciə ilə bağlı yanvarın 17-si Gürcüstanda matəm günü elan olunub. Bu barədə Gürcüstanın baş naziri Mamuka Baxtadze qərar qəbul edib.

Qərara əsasən, yanvarın 17-si Gürcüstanda bütün dövlət qurumlarında və xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə dövlət bayraqları endirilib.

Qeyd edək ki, Tbilisinin Didi Diğomi rayonunda yaşayış binasında qaz sızmasının səbəb olduğu güclü partlayış nəticəsində 4 nəfər ölüb, 7 nəfər isə xəsarət alıb.

## MAMUKA BAXTADZE: "GÜRCÜSTANIN MƏQSƏDİ NATO VƏ AVROPA İTTİFAQINA ÜZV OLMAQDIR"

"NATO-ya üzv olmaq Gürcüstanın əsas arzusudur və biz bu istəyə tam sadiqiq". Bunu Gürcüstanın baş naziri Mamuka Baxtadze ABŞ-ın "CNBC TV" kanalına müsahibəsində deyib.



O bildirib ki, Gürcüstan əhalisinin böyük əksəriyyəti NATO-ya inteqrasiyanı dəstəkləyir: "Gürcüstan NATO və Avropa İttifaqına üzvlüyü məqsəd kimi görür. Son illərə nəzər yetirsək, görərik ki, Gürcüstan bu yolda böyük uğurlar əldə edib. Ötən il Brüsseldə konfrans zamanı NATO bir daha təsdiq etdi ki, Gürcüstan nə vaxtsa Alyansa üzv olacaq. Buna görə də biz dəstək almışıq və NATO ilə münasibətlərimizi yeni səviyyəyə qaldırmaq istəyirik".

M.Baxtadze qeyd edib ki, Gürcüstanın məqsədi regionda iqtisadi qovşağa çevrilməkdir. "Gürcüstan coğrafi mövqeyi baxımından iqtisadi hab olmağa "təbii namizəd"dir. Ölkəmiz dənizə çıxışı olmayan səkkiz ölkə üçün darvaza rolunu oynayır. Bu ölkələrin əhalisi 100 milyon insana yaxındır və dünyanın ən sürətlə inkişaf edən istehlakçı bazarlarıdır", - deyə baş nazir bildirib.

## QRİP VİRUSUNUN İKİNCİ DALĞASI GÖZLƏNİLİR

Gürcüstanın Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidzenin sözlərinə görə, Gürcüstan qrip virusunun ikinci dalğasına hazırdır.



O deyib ki, ölkədə "Tamiflu" dərman preparatının kifayət qədər ehtiyatı var: "Bizim qrip virusunun yayılmasının müşahidəsi ilə bağlı çoxillik göstəricilərimiz var. Bir, iki və ya daha çox dalğa ola bilər. İkinci dalğanın fevral ayında olacağı mütləq deyil, lakin ölkə buna hazır olmalıdır".

A.Qamkrelidze qeyd edib ki, fevralda qrip virusunun yayılması göstəricisi artsa, səhiyyə sistemi müvafiq tədbirlər həyata keçirəcək.

Qeyd edək ki, bu günə qədər qrip virusundan 22 nəfər ölüb. Onların 20-nin "donuz qripi" adlandırılan A (H1N1) virusundan ölməsi laboratoriya şəraitində təsdiq olunub.



# YANVAR OLAYLARI

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

**Yeni ilin ilk ayından ölkədə baş verən bir neçə olay uşaqlardan tutmuş qocalara qədər hamıya təsir etdi. Bir yandan "donuz qripi", qızılca kimi xəstəliklərin ölkəni bürüyən xofu, bir yandan Axalkalakidə büstün açılışının donuz qripindən betər təsiri, bir yandan da təhsil sahəsindəki yeni reformalar təkcə ölkə ictimaiyyətini deyil, qonşu ölkələri də narahat etdi.**

Büst məsələsindən başlamaq istəyirəm. Deməli, yanvarın 20-si Axalkalakinin Buqaşen kəndində Qarabağ müharibəsində iştirak etmiş Mixail Avakyanın büstünün təntənəli açılışı mərasimi olub ( 20 yanvarın azərbaycanlılar üçün necə bir gün olduğu bütün dünyaya məlumdur və büstün məhz bu tarixdə açılışını bir təsadüf hesab etmək eşşək sadəlövhlüyündən başqa bir şey deyil. Heç olmasa 21-i edəydilər). Əlbəttə, büstün açılışına Gürcüstanda və Azərbaycanda etirazlar edildi. Yandırılmış odun üstünə ajiotaj, təxribat, iki strateji ölkənin arasını vurmaq və sair kimi sözlərdən ibarət su töküb söndürmək istəyənlər də oldu, odu qalayan gizli əllərin axtarışına çıxanlar da. Amma məsələ elə o odun işığının aydınlatdığı qədər də aydındır. Və burda kibriti çəkən barmaqların sahibini axtarmaq zad lazım deyil. Ölkənin ən ucqar yerlərində maşınının sürətini qoyulmuş qaydadan saatda 10-20 at gücü qədər artıran vətəndaşı görüb cərimələyən kameraların sahiblərinin gözündən o boyda Qarabağda, Abxaziyada döyüşən qondarma qəhrəmanın büstümü yayındı əcaba? Hər halda bu cür milli məsələlərdə diqqətli olmalı, ən azı balans qorunmalıdır. Yoxsa birinə büst qoyub, digərinin büstünü götürmək ayrı-seçkilikdən başqa bir şey deyil.

Ötən günlərdə Marneuli Mədəniyyət Evinin yanındakı parkda yerləşən Nəriman Nərimanovun büstünün yerinin dəyişdirilməsi, büstün yerləşdiyi parka Merab Kostavanın adının verilməsi haqqında məlumatlar yayıldı və bununla bağlı büstün yanında fəal gənclər, ziyalılar və ictimaiyyət nümayəndələrinin iştirakı ilə etiraz aksiyası da keçirildi. (Onu da xatırladım ki, Nərimanovun adı Marneuli Mədəniyyət Evindən çoxdan götürülübmüş). Ümumiyyətlə, bu büst, heykəl, barelyef söhbəti həmişə qalmaqallı olub. Marneulidəki Nizami Gəncəvinin abidəsi ilə bağlı hadisələr çoxlarının yadındadır yəqin ki.

O ki qaldı Kostavanın adına, şükür Allaha Gürcüstanda o qədər adsız parklar, mədəniyyət evləri, küçələr var ki, hətta Kostavanın adını bir neçə yerə vermək də olar, büstünü, heykəlini qoymaq da. Məsələn, Qardabanidə hələ də Oktyabr, Ulyanovsk, Stalin, Komsomol, Kirov, Komissar, Pioner, Çapayev küçə adları var. Sovetdən qalma bu tip adlar Marneulidə də çoxdur yəqin ki. Elə isə niyə məhz Nəriman Nərimanov hədəfə alınıb. Dəyişdirilirsə qoy bu Sovetdən qalma küçə adları dəyişdirilsin. Bolşevik söhbəti edilirsə qoy bolşevik adına olan kəndlərin adı dəyişdirilsin. Əks halda məqsəd gün kimi aydındır, vətəndaşlar. Nərimanovun daş büstündə düşmən cizgiləri axtaranlar yaxşı olar ki, İlia Çavçavadzenin fəryad edən daşlarını da eşitsinlər. O zaman o cizgiləri hansı büstlərdə axtarmalı olduqlarını bilərlər.

**Bir neçə söz də yeni təhsil reforması haqqında yazmaq istəyirəm. Deməli, qəzetimizin təhsil bölümündə də xəbər verdiyimiz kimi yeni reformaya əsasən, bu ildən 11-ci siniflər buraxılış imtahanları verməyəcəklər. 12-ci siniflər isə gələn ildən bu imtahandan azad ediləcəklər, yəni bu il 12-cilər adi qaydada imtahan verəcəklər. Buraxılış attestatını isə şagirdlər dərslərdə iştirak etdiklərinə əsasən alacaqlar. Yəni belə çıxır ki, məktəb kimə istəyəcək ona da attestat verəcək. Belə çıxır ki, şagirdlər daha imtahanlara hazırlaşmayacaqlar. İmtahan məsuliyyəti ən azı zəif oxuyan şagirdi də əlinə kitab almağa məcbur edirdi. İndi isə məktəb hansı şagirdə attestat verib, hansına verməyəcəyini özü müəyyən edəcək. Bu repetitorların "bazarına" da təsir edəcək. Çünki daha heç kəs imtahana hazırlaşmayacaq. Belə. Bəlkə elə yaxşısı budur. Yaşayarıq, görərik. Necə deyərlər vətənə, millətə xeyirli olsun.**

## 2020-Cİ İLİN 1 YANVARINDAN TİCARƏTÇİLƏR KASSA APARATI OLMADAN İŞLƏYƏ BİLMƏYƏCƏKLƏR

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, bazar ərazisində ticarətlə məşğul olan fiziki şəxslərə məhdudiyyətlər qoyulacaq.

Məcəllənin 26-cı maddəsinə əsasən, ticarətlə məşğul olanlar 2020-ci ilin 1 yanvarından nəzarət-kassa aparatından istifadə etmək məcburiyyətində olacaqlar.

Əvvəlki qanun layihəsinə əsasən, bazar ərazisində ticarətlə məşğul olan fiziki şəxslər üçün kassa aparatının əldə olunması öhdəliyi ticarətin təşkilatçısının üzərinə qoyulurdu, ancaq məsləhətləşmələrdən sonra Maliyyə Nazirliyi qərar qəbul etdi ki, ticarət təşkilatçıları fiziki şəxsə yalnız imkanı çatmadığı halda kassa aparatı ala bilər. Bu haqda bm.ge saytına "Lilo Mall"un idarəçi meneceri Levan Qaqua bildirib.




Onun sözlərinə görə, "Lilo Mall"da ticarət sahəsinin fiziki şəxslərə kirayəyə verilməsi onların istehsalçı statusu olmadan mümkün deyil. Ancaq piştaxtada yerləşdirilmiş mallarla alver edən və kassa aparatı olmayanlar 2020-ci ildən ticarətlə məşğul ola bilməyəcəklər.

## QIZILCAYA YOLUXANLARIN SAYI ARTIR

"Gürcüstan qızılca epidemiyası ilə üzüzədir və bu xəstəliyə yoluxanların sayı artmaqda davam edir". Bu barədə ölkənin Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin elmi rəhbəri Paata İmnadze deyib.

Bu ilin əvvəlindən qızılcaya 716 nəfər yoluxub. "Yoluxanların böyük əksəriyyəti Tbilisi şəhəri, Sameqrelo, İmereti və Kaxeti bölgələrinin payına düşür", - deyə P.İmnadze bildirib.

P.İmnadze qeyd edib ki, qızılcaya qarşı peyvənd kampaniyasına başlanılıb.

Qeyd edək ki, Gürcüstanda qızılcaya yüksək yoluxma göstəricisi 20-40 yaş arası sakinlər arasında qeydə alınıb. Ölkədə 0-19 yaş arası insanlar üçün bu xəstəliyə qarşı peyvənd məcburi olub.



Məlumat üçün qeyd edək ki, qızılca yüksək yoluxuculuq dərəcəsinə malik kəskin infeksiyalı virus xəstəliyidir, yüksək hərarət (40,5 °C-dək), ağız boşluğu seliyinin və yuxarı nəfəs yollarının iltihabı, konyunktivit və dəri qatının ləkəli-düyüncüklü səpgisi, ümumi intoksikasiya (orqanizmin zəhərlənməsi) ilə xarakterizə edilir.

## DİNİ İCMALAR ÜÇÜN 2019-CU İLİN BÜDCƏSİ MƏLUM OLUB

Dini Məsələlər üzrə Dövlət Agentliyinin yaydığı məlumata əsasən, 2019-cu ilin dövlət büdcəsindən Gürcüstanda fəaliyyət göstərən dini icmalara 4,5 milyon lari vəsait ayrılıb. Məbləğin 3,5 milyon larisi dini icmalar arasında artıq bölüşdürülüb.

Vəsaitin böyük hissəsi – 2,2 milyon lari Gürcüstanın müsəlman icmasının payına düşüb. Erməni xristian icmasına 600 min lari, Roma katolik icmasına 400 min lari, yəhudi icmasına isə 300 min lari vəsait ayrılıb. Qalan 1 milyon lari isə cari ilin sonuna qədər dini icmalar arasında bölüşdürüləcək.

## DİNİ MƏSƏLƏLƏR ÜZRƏ DÖVLƏT AGENTLİYİNDƏ BGMİ-NİN RƏHBƏRLİYİ İLƏ GÖRÜŞ KEÇİRİLİB

Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentlyində Bütün Gürcüstan Müsəlmanları İdarəsinin (BGMİ) rəhbərliyi ilə görüş keçirilib.

Agentlik sədri Zaza Vaşakmadze şeyx Ramin İgidovu və müfti Hacı Yasin Əliyevi qəbul edib. Görüşdə Z.Vaşakmadze müsəlman icmasının qayğıları və BGMİ-nin son illərdəki fəaliyyəti ilə maraqlanıb. BGMİ-nin nümayəndələri planlaşdırılan tədbirlər barədə məlumat veriblər. Agentlik sədri idarəyə gələcək fəaliyyətində uğurlar arzu edib.



## AVROPA İTTİFAQI GÜRCÜSTANA 3,5 MİLYARD AVRO AYIRACAQ

Gürcüstanın xarici işlər naziri David Zalkalianinin bildirdiyinə görə, Avropa İttifaqı (Aİ) Gürcüstana 3,5 milyard avro ayıracaq.

Onun sözlərinə əsasən, vəsait Gürcüstanda infrastruktur layihələrinin həyata keçirilməsinə sərf olunacaq. "Bu, vacib qərardır. Gürcüstanın Avropa strukturlarına inteqrasiyası bizim xarici siyasətimizin əsas prioritetidir. Məqsədimiz Avropa İttifaqına inteqrasiyadır. Bu maliyyə yardımı da bunu nəzərdə tutur", - deyə nazir bildirib.

D.Zalkaliani deyib ki, Gürcüstanda nəqliyyat infrastrukturunun inkişafını nəzərdə tutan bir sıra əhəmiyyətli layihələr var və Aİ-nin vəsait ayırması alqışa layiqdir.

## MOSKVADA TÜRKİYƏ VƏ RUSİYA PREZİDENTLƏRİNİN GÖRÜŞÜ OLUB



Moskvada Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya prezidenti Vladimir Putin arasında görüş keçirilib. Görüşün yekunlarına dair keçirilən mətbuat konfransında Vladimir Putin Türkiyə prezidenti ilə görüşün səmərəli olduğunu bildirib. Qeyd edib ki, aparılan müzakirələr Rusiya-Türkiyə münasibətlərinin mehriban qonşuluq şəraitində inkişafına kömək edəcək. O, Suriya münaqişəsinin nizama salınmasına dair Rusiya, Türkiyə və İran dövlət başçılarının Sammitinin belə səmərəli görüşlərdən olduğunu vurğulayaraq növbəti Sammitin Rusiyada keçiriləcəyini deyib. Vladimir Putin növbəti görüşün təxmini tarixi ilə bağlı da razılığın əldə edildiyini söyləyib.

Prezident Vladimir Putin energetika sahəsində əlaqələrin inkişafından danışıb. 2018-ci ilin noyabrında "Türk axını" qaz kəmərinin dənizdən keçən hissəsinin tikintisinin başa çatması ilə bağlı mərasimdə Türkiyə prezidenti ilə birlikdə iştirakını xatırlayan Vladimir Putin bildirib ki, Rusiya bu boru kəmərinin qurudan keçən hissəsinin tikintisinin cari ilin sonunadək başa çatacağına ümid bəsləyir. V.Putin həmçinin "Akkuyu" atom elektrik stansiyasının birinci blokunun Türkiyə Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə 2023-cü ildə istismara veriləcəyini vəd edib.

Rusiya lideri Suriya münaqişəsinin nizama salınması, Suriya ərazisində terror qruplaşmalarının tamamilə məhv edilməsi, İdlibdə sabitliyin bərqərar edilməsi məsələlərinin də danışıqlar mövzusu olduğunu diqqətə çatdırıb.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Kerç körfəzində baş vermiş faciədə ölənlərin ailələrinə başsağlığı verib, yaralılara şəfa diləyib.

Prezident Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, Rusiya ilə bütün sahələrdə əməkdaşlıq əlaqələri inkişaf edir, "Türk axını" və "Akkuyu" layihələrinin reallaşması istiqamətində işlər davam etdirilir. Ötən il 6 milyona yaxın rusiyalı turistin Türkiyəyə səfər etdiyini vurğulayan prezident bu il turistlərin sayının daha da artacağına ümid bəslədiyini qeyd edib.

Türkiyə prezidenti Suriyanın terror qruplaşmalardan təmizlənməsinin vacibliyini vurğulayıb. Prezident Rəcəb Tayyip Ərdoğan 4 milyon suriyalı qaçqını qəbul etmiş bir ölkə kimi Türkiyənin bu məsələ ilə bağlı ciddi narahatlığını ifadə edib.

## TÜRKİYƏ 53 MİNDƏN ÇOX SURİYALIYA VƏTƏNDAŞLIQ VERİB

Türkiyə 53 min 99 suriyalıya vətəndaşlıq verib. Bunu Türkiyənin daxili işlər naziri Süleyman Soylu deyib.

O qeyd edib ki, həmin şəxslər Türkiyə vətəndaşı olmaq hüququ qazanıblar və martın 31-də keçiriləcək bələdiyyə seçkilərində səsvermədə iştirak edəcəklər.

Nazir vurğulayıb ki, bələdiyyə seçkilərinin təhlükəsizliyini 547 min polis təmin edəcək.



Qeyd edək ki, 2011-ci ildə Suriyada başlayan vətəndaş müharibəsindən sonra ölkədən didərgin düşən 4 milyon suriyalı Türkiyəyə sığınıb.

## NATO QARA DƏNİZDƏ GÜRCÜSTANIN HƏRBİ DƏNİZ QÜVVƏLƏRİ İLƏ ƏMƏKDAŞLIQ EDƏCƏK

NATO Qara dənizdə Gürcüstanın Hərbi Dəniz Qüvvələri ilə əməkdaşlıq edəcək. Bu sözləri NATO-nun baş katibi Yens Stoltenberq Gürcüstan prezidenti Salome Zurabişvili ilə Brüsseldə keçirdiyi görüşdə söyləyib.

"NATO Gürcüstanın Qara dənizdə başqa dövlətlərin hərbi qüdrətinin artması ilə bağlı narahatlığını başa düşür və bu məsələni bölüşür. Biz Qara dənizdə daha fəal əməkdaşlıq edəcəyik", - deyə baş katib bildirib. O qeyd edib ki, NATO-Gürcüstan hərbi dəniz qüvvələri arasında əməkdaşlıq çərçivəsində sahil mühafizə sahəsində birgə təlimlər də nəzərdə tutulub.

## ƏHALİNİN ÇOX HİSSƏSİ GÜRCÜSTANIN Aİ VƏ NATO-YA İNTEQRASİYASINI DƏSTƏKLƏYİR

Gürcüstanda rəyi soruşulanların 83%-i ölkənin Avropa İttifaqına (Aİ) inteqrasiyasını dəstəkləyir. Aİ-yə inteqrasiyanı dəstəkləməyənlər isə 9% təşkil edib. Bu barədə ABŞ-ın Milli Demokratiya İnstitutunun (NDI) Gürcüstanda keçirdiyi ictimai rəy sorğusunun nəticələrində bildirilib.

NATO-ya inteqrasiyaya gəlincə, respondentlərin 78%-i ölkənin Alyansa üzvlüyünün lehinə, 13%-i isə əleyhinə səs verib.

NDI sorğunu işğal altında olan ərazilər istisna olmaqla bütün Gürcüstan üzrə ötən ilin 6-20 dekabr tarixində 2205 respondent arasında aparıb.

NDI həmçinin Gürcüstanda keçirdiyi ictimai rəy sorğusunda ölkə əhalisini narahat edən əsas milli məsələləri də açıqlayıb.

Respondentlərin 51%-i iş yerlərini özü və ailəsi üçün əsas milli problem kimi göstərib. Rəyi soruşulanların 38%-i yoxsulluq, 37%-i isə qiymət artımını ən əsas problem hesab edib.

Araşdırmaya əsasən, 2009-cu ildən etibarən əhalini ən çox narahat edən problemlərin ilk üçlüyü (iş yerləri, yoxsulluq, qiymət artımı) dəyişməz olaraq qalıb.

## HƏYATIMIZI SEVƏK, PİS VƏRDİŞLƏRƏ YOX DEYƏK!



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

**Hər zaman gənclər bizim gələcəymizdir deyib buna dəfələrlə vurğu edirik. Bu səbəbdən də cəmiyyətə aid mədəniyyətlərin gələcəyə daşıyıcıları olan uşaqların, bədən və ruh sağlamlıqlarının qorunması və varsa əskik yönlərinin düzəldilməsi yetkinlərin vəzifə və məsuliyyətləri sahəsinə girməkdədir.**

Gənclərin sağlam yetişdirilmələri, gələcəyə istiqamətli ümid və qayğı daşıyan hər cəmiyyətin təməl məsələlərindəndir. Cəmiyyətlərin irəliyə dönük ümidləri olan uşaqların, sağlam bir şəkildə gələcəyə daşınması, dövlətlərin də sağlam bir ictimai quruluşa və uzun bir ömrə sahib olacaqları mənasını verməkdədir. Cəmiyyətlərin sağlam və möhkəm bir quruluşa sahib olub-olmadıqları siyasi, ictimai, iqtisadi, səhiyyə və təhsil kimi sahələrdəki rifah standartlarının yüksəkliyi və ya aşağılığı ilə aydın ola bilər. Təhsil səviyyəsinin aşağılığı, iqtisadi imkansızlıqlar, əxlaqi və sağlamlıq problemləri, sərxoş edici və narkotik maddə istifadəsi kimi xüsuslar fərdi və ictimai həyatı təhdid edən faktorlardır. Əxlaqi çöküş və gənclik ilə əlaqədar problemlər bütün dünya ölkələrində az və ya çox mövcuddur.

Sözügedən problemlər arasında xüsusilə gənc nəsli maraqlandıran maddə istifadəsi və asılılığının hər keçən gün daha da çoxalması xüsusilə diqqət çəkməkdədir. Hərçənd indiki vaxtda bir çox ölkə maddə asılılığı daxilində olan spirt və narkotik kimi maddələrin istifadəsindən ölkəmizə görə daha çox çətinliklər yaşamaqdadır. Ancaq ölkəmizdə də xüsusilə gənc əhali arasında maddə asılılığı sürətlə yayılmaqdadır.

Maddə deyilincə məqalədə insanlara sərxoşluq verən, normal fəaliyyətlərini yerinə yetirməsinə mane olan, bədən və ruhi sağlamlığını pozan spirt, tütün, heroin, kokain, xaşxaş və bəzi uyuşdurucular nəzərdə tutulmaqdadır.

Bir insanın istifadə etdiyi maddəyə fizioloji və psixoloji olaraq bağlanmasına və ona davamlı olaraq tələb duymasına maddə asılılığı və ya bağımlılığı deyilməkdədir.

İnsan bir şeyin bağımlısı olmazdan əvvəl yavaş-yavaş o maddədən istifadə etməyə başlayır. Bu maddənin zamanla onu əsir alacağını bilməsə də getdikcə aludəçisi olmağa başlayır və ayrıla bilmir. Onun üçün də insan bu alışqanlığa başlamadan, başqa dillə desək, bu maddənin istifadəsinə başlamadan onun nəticələrini də düşünməlidir. Bir-iki dəfəylə bir şey olmaz deyib keçməməlidir.

Bu bağımlılığın qarşısının alınması üçün ilk öncə valideynlər övladlarına diqqət etməli, kiminlə dostluq etdiyinə fikir verməli və onları hər zaman nəzarətdə saxlamalıdırlar.

Bu yaxınlarda bu mövzuyla bağlı "Gürcüstan Yaşılay Cəmiyyəti"nin də gözəl bir təşəbbüsü oldu. Era Teatrının hazırladığı və TİKA-nın da maddi dəstəyi ilə səhnələşdirilən "Bu yolun son dayanacağı" başlıqlı teatr tamaşası sözün əsl mənasında təqdirəlayiq bir addım oldu. Bu tamaşada zərərli vərdişlərə aludə olmuş bir gəncin dramı sərgiləndi və həqiqətən də bu gəncin bu alışqanlığı onun gənc ömrünün sonu oldu. Bu da bir daha onu göstərir ki, insan istifadə etdiyi maddənin fərqində olmalı, ömrünü bu pis alışqanlıqlarla puç etməməlidir.

Yuxarıda da dostluq haqqında vurğuladıq. Bəli, insanın həyatında ətrafındakıların təsiri böyükdür. Bu səbəblə də Peyğəmbər əfəndimiz "İnsan dostunun dini üzrədir" buyurur.

Bəli, əzizlərim, məhz elə buna görədir ki, dinimizdə içki, qumar və bunlara bənzər pis alışqanlıqlar qadağan edilmişdir.

**Əziz gənclər, bir millətin gələcəyi sizin əlinizdədir, odur ki, gəlin həyatımızı sevək, pis vərdişlərə yox deyək!**

# 20 YANVAR – AZƏRBAYCAN XALQININ MÜSTƏQİLLİK MÜBARİZƏSİ

**1985**-ci ildə SSRİ rəhbərliyinə Mixail Qorbaçov seçildi. O, dövlətin təməl problemlərinin radikal və təzyiqçi bir yol izlənilməsindən dolayı qaynaqlandığını irəli sürdü. Dünyaya qapalı qalmasının bir nəticəsi olaraq müasir dövrün xaricində qalan və kobudlaşan sistemin və cəmiyyət həyatında yaşanan durğunluğun ancaq köklü islahatlarla həll edilə biləcəyi qənaətini dilə gətirdi. Qorbaçov 1986-cı ildə "perestroyka" (yenidənqurma) və "qlastnost" (aşkarlıq) siyasətinin qəbul edilməsini təmin etdi. Bu çərçivədə "Sovetlər Birliyini yenidən ayağa qaldıracağıq" adı altında bir siyasət işləyərək radikal addımlar atdı. Qorbaçovun perestroyka və qlastnost siyasəti gözlənilməz nəticələr doğurdu və Sovet xalqları üzərindəki basqının yumşalmasıyla on illərdir ağır şərtlər altında əzilən xalqların milli duyğuları oyanmağa başladı. 1990-cı ilin martında SSRİ-də prezident idarəetmə sisteminə keçildi. Ancaq bu vəziyyət özü ilə Sovetlər Birliyi üçün yumşalma və dağılma mərhələsini gətirdi.

Qorbaçov dövründə Sovet rəhbərliyinin ortaya çıxardığı etnik qarşıdurmaları silahlı güc istifadə edərək basdırmağa çalışması Sovet tərkibindəki xalqların milli duyğularını daha da gücləndirdi. Sovet dövründə mədəni zənginliklərinin itməsinə, ana dillərinin yox olmağa üz tutmasına çarəsizlik içində boyun əyən millətlərin qürurları zədələnmişdi. Millətlərarası problemlər əsasən mərkəzdən uzaq olan Orta Asiya respublikalarında və Qafqaz respublikalarında daha çox görüldü. Azərbaycanda 1988-1990-cı illərdəki Sumqayıt və 20 Yanvar, Gürcüstanda 9 Aprel Tiflis hadisələrindən sonra hər iki dövlət də 1991-ci ildə öz müsəqilliklərini elan etdilər.

26 Fevral 1988-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşməsi qərarının verilməsi Azərbaycan və Ermənistan arasında müharibəyə səbəb oldu. Moskva bu qərarı tanımadı, ancaq ermənilərin lehinə, azərbaycanlıların əleyhinə bir çox güzəştlər etdi. 1988-1989-cu illərdə 300 mindən çox azərbaycanlı hər cür işgəncələrə məruz qalaraq Ermənistandan qovuldu. Qovulan qaçqınlara Sovet səlahiyyətliləri kömək etmədi və Azərbaycanın paytaxtı Bakıya girişləri qadağan edildi. Bu səbəblə köçkünlərin bir qismi Bakıya ən yaxın böyük şəhər olan Sumqayıta istiqamət aldılar və hadisələrin KQB tərəfindən istismar edilməsi ilə Sumqayıtda bir sıra hadisələr meydana gəldi. Yaranan qarşıdurmalarla birlikdə 27-29 fevral 1988-ci ildə bir çox insan həyatını itirdi. Ermənistandan qovulan qaçqınlar haqlı olduqları halda, KQB-nin təxribatları ilə haqsız vəziyyətə düşdülər. Digər tərəfdən istər Azərbaycanın digər bölgələrindəki şəhərlərdə, istərsə də Dağlıq Qarabağda azərbaycanlılar inkişaf edən hadisələrdən xeyli narahat idilər. Ermənistandakı azərbaycanlılara edilən zülmlərə, ermənilərin artan torpaq tələblərinə və bütün bunlara səssiz qalan Sovet rəhbərliyinə qarşı Bakı, Gəncə və Naxçıvan şəhərlərində nümayişlər təşkil edildi və müstəqillik tələbləri gündəmə gəldi. Bunun üzərinə Qırmızı Ordu birlikləri 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya girərək aralarında qadın və uşaqların da olduğu 150-yə yaxın vətəndaşı qətlə yetirdi, yüzlərcə adam yaralandı və həbs edildi. Bu hadisələr Azərbaycan xalqının müstəqillik duyğularını yüksəltdi. Heydər Əliyev



bu vəziyyətə səssiz qalmayaraq Moskvada lazımlı yerlərə etirazlarını bildirdi. Bu hadisələrdən sonra Azərbaycan xalqı açıq bir şəkildə müstəqillik tələb etdi.

Moskvada 19 avqust 1991-ci ildə uğursuz çevriliş təşəbbüsündən sonra 18 oktyabr 1991-ci ildə Azərbaycan və Gürcüstan müstəqilliklərini elan etdilər.

***Cəfər MUSTAFALI***
***Mərmərə Universiteti, Türkiyat Elmi Araşdırmalar İnstitutu, Ümumi Türk Tarixi üzrə magistr tələbəsi***

## 20 იანვარი – გლოვის დღე

20 იანვარი აზერბაიჯანელი ხალხის ისტორიაში შევიდა როგორც ყველაზე სისხლიანი ტრაგიგული დღე. ყოფილი საბჭოთა სახელმწიფოს სამხედრო მანქანის მიერ, იმ დღეს აზერბაიჯანელი ხალხის წინააღმდეგ განხორციელებული მხეცური ტერორისტული აქტი, ისტორიას ყველაზე მძიმე დანაშაულივით შავ ფურცლად შემორჩა. ეროვნული დამოუკიდებლობის, თავისი ქვეყნის ტერიტორიული მთლიანობისათვის საბრძოლველად გამოსული მშვიდობიანი მოსახლეობის ჟლეტვამ, მასობრივი ტერორის შედეგად ასობით უდანაშაულო ადამიანის სიკვდილით დასჯამ და დასაჩიხრებამ ტოტალიტარული საბჭოთა რეჟიმის ნგრევის პერიოტში მყოფი სახელმწიფოს ფაშისტური არსი მთელს მსოფლიოს უჩვენა.



საბჭოთა არმიის მრავალრიცხოვანი კონტიგენტის, სპეციალური დანიშნულების განაყოფების და გვარდიის ბაქოში შემოჭრა განსაკუთრებული სისასტიკით და არა ადამიანური სიმხეცის დემონსტრირებით დასრულდა. იმ პერიოტში აზერბაიჯანი მეზობელი სომხეთის აგრესიის მსხვერპლიც იყო.

მიხეილ გორბაჩოვის მეთაურობით საბჭოთა იმპერიის მესვეურებმა „სომეხი და რუსი ხალხის კარტი" მოხერხებულად გაოიყენეს. ვითომდაც ბაქოში გვარდია მათი, სამხედრო მოსამსახურეთა ოჯახების დასაცავად", ნაციონალისტი ექსტრემისტების" მხრიდან ხელისუფლების ძალით ხელში ჩაგდების მცდელობის აღსაკვეთად იყო შემოსული. სინამდვილეში კი ყოველივე ეს ტყუილი იყო, აღნიშნული სიმართლე რომც ყოფილიყო, საბჭოთა ხელისუფლების მხრიდან ბაქოში კბილებამდე შეიარაღებული სამხედრო ძალების შემოყვანა მიზანშეწონილი არ იყო, იმ პერიოტში შიდა ძალების 11,5 ათასი ჯარისკაცი, თავდაცვის სამინისტროს ქვეშ მყოფი ბაქოს გარნიზონის მრავალრიცხოვანი სამხედრო ნაწილები, საჰაერო შემოტევების თავდაცვის ძალები არსებობდა. მე-4-ე გვარდიაც ბაქოში იყო დისლოცირებული.

ყოველივე ამის მიუხედავად, 1990 წლის 19 იანვარს მიხეილ გორბოჩოვმა სსრკ-ის კონსტიტუციის 119-ე მუხლისა და აზერბაიჯანის სსრ-ის კონსტიტუციის 71-ე მუხლის უხეშად დარღვევით, 20 იანვარს ბაქოში საგანგებო მდგომარეობის გამოცხადების ბრძანებას მოაწერა ხელი. 19 იანვარს 19.27 სთ-ზე სსრკ-ის სუკ-ის ჯგუფმა „ალფამ" აზერბაიჯანის ენერგო ბლოკი ააფეთქა, რესპუბლიკაში შეჩერდა სატელევიზიო გადაცემები. იმ ღამეს კი არმია შემოვიდა ქალაქში, სადაც გამოცხადებული იყო საგანგებო მდგომარეობა და მოსახლეობის ჟლეტვა დაიწყო. მანამ, სანამ გორბაჩოვის კანონი ძალაში შევიდოდა 20 იანვარს 00:00 სთ-მდე 9 კაცი უკვე მოკლული იყო. ქალაქ ბაქოს მოსახლეობას საგანგებო მდგომარეობა 20 იანვარს დილით 7 სთ-ზე რესპუბლიკის რადიოს მეშვეობით გამოუცხადეს. იმ დროისათვის დაღუპულთა რიცსხვი 100 კაცს უდრიდა. გორბაჩოვის მიერ ბაქოში მოვლენილი მაღალჩინოსანი სამხედრო მოხელეები უსინდისოდ აცხადებდნენ, რომ ბაქოში საგანგებო მდგომარეობა არ გამოცხადდება. აი, ესაა საბჭოთა იმპერიის მისი ხელმძღვანელის ხელსისხლიანი მიხეილ გორბაჩოვის ჭეშმარიტი სახე, რომელსაც შემდგომში ნობელის მშვიდობის პრემია მიენიჭა.

ტანკებმა და ბტრ-მა ბაქოს ქუჩებში ყველაფერი რაც წინ შემოხვდათ, ჯარისკაცები ირგვლივ ისროდნენ. მშვიდობიან მოსახლეობას ტყვია არა მარტო ქუჩაში, არამედ ავტობუსში და სახლში მყოფებსაც შეხვდა. დაჭრილთა დასახმარბლად მოსულ სასწრაფო დახმარების ავტომობილსა და მის მუშაკებს კი ცეცხლს უხსნიდნენ, არ ინდობდნენ. რამდენიმე დღეში 137 კაცი მოკლული, 700 დაჭრილი და 800-ზე მეტი კაცი კი დაპატიმრებული იქნა.

### GÜRCÜSTAN GƏNCLƏRİNƏ YARDIM VƏ MAARİFLƏNDİRMƏ TƏŞKİLATINDA 20 YANVAR HADİSƏSİ YAD EDİLİB



Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) nəzdində fəaliyyət göstərən Tbilisi Tələbə Yataqxanasında 20 Yanvar şəhidlərinin xatirəsi yad edilib.

GYMD tərəfindən təşkil olunmuş görüş seminar formatında həyata keçirilib. Şəhidlər bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsinin sədri Rafiq Hümmət bu günün əhəmiyyətindən, bu günün tək Azərbaycan üçün yox, həm də bütün dünya azərbaycanlıları üçün böyük əhəmiyyət daşıdığından söhbət açıb. O, həmçinin Azərbaycan xalqının tarixdəki qəhrəmanlıqlarına nəzər salıb. Tədbir sual-cavabla davam etdirilib.

### BOLNİSİDƏ 20 YANVAR FACİƏSİ YAD EDİLİB

Bolnisi meriyasında Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, Kvemo Kartli qubernatorunun müavini Zaur Dərğallı və Bolnisi bələdiyyəsinin yerli özünüidarəetmə nümayəndələri azərbaycanlı vətəndaşlarla görüşüb və 29 il əvvəl Bakıda törədilmiş 20 Yanvar faciəsini yad ediblər.

Çıxışı zamanı səfir 29 il əvvəl Azərbaycanda olan vəziyyəti xatırladıb. Dursun Həsənov Sovet ordusu tərəfindən həyata keçirilən geniş miqyaslı faciə haqqında danışıb və qeyd edib ki, oxşar hadisələr Gürcüstanda da baş verib və günahsız insanlar həyatını itirib.

Görüşdə "Qara Yanvar" xronikası ilə bağlı sənədli film nümayiş etdirilib. Həmçinin 20 Yanvar faciəsini əks etdirən fotolardan ibarət sərgi təşkil olunub.

# YUXARI SİNİFLƏRDƏ BURAXILIŞ İMTAHANLARI LƏĞV OLUNUR, 9 İLLİK BAZA TƏHSİLİ İSƏ 10 İL OLUR

Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyində baş tutan tədbirdə təhsil naziri Mixeil Batiaşvili, onun müavini İrina Abuladze və Milli İmtahanlar Mərkəzinin direktoru Sopio Qorqodze təhsil reforması çərçivəsində həyata keçiriləcək bir sıra yenilikləri ictimaiyyətə təqdim ediblər.

Yeni reformaya əsasən, 2019-cu ildə 11-ci sinif şagirdləri üçün buraxılış imtahanları ləğv olunur. 12-ci sinifdə isə imtahanlar olduğu kimi qalacaq və indiki mərhələdə yalnız attestat imtahanlarının verilmə qaydası dəyişəcək. Bu il 12-ci sinifdə imtahanlar ona görə saxlanılır ki, başlamış silsilə başa çatmalıdır. 12-ci sinifdə attestat imtahanları 2020-ci ildə ləğv olunacaq. Məktəb şagirdə attestatı dərslərdə iştirak etməsinə əsasən verəcək.

Ötən illərdə maneəni aşa bilməyən və yaxud bir fənn imtahanından



kəsilərək attestat ala bilməyən şəxslərin uyğun olan fənn üzrə imtahana qeydiyyat olmaq hüquqları da var.

2020-ci ildən Vahid Milli İmtahanlarda ümumi qabiliyyət imtahanını vermək məcburi olmayacaq. Abituriyentlər üçün yalnız gürcü dili və ədəbiyyatı, xarici dil imtahanını vermək məcburi olacaq. Üçüncü vacib fənn isə ali təhsil müəssisəsinin proqramına əsasən, məsələn, texniki istiqamətdə fənn seçimi olan halda riyaziyyat, humanitar istiqamətdə isə tarix fənni seçiləcək.

Məktəbin vacib baza təhsilinin 9 illik sistemi isə 10 ilə qədər uzadılacaq. Bu dəyişikliyin həyata keçirilmə vaxtı dəqiq məlum deyil.

Təhsil nazirinin müavini İrina Abuladze qeyd edib ki, dəyişikliyin məqsədi statistik göstəricilərlə çox sayda şagirdlərin məktəbi məhz imtahanlar başlayan dövrdə, X sinifdə tərk etməsidir. Belə şagirdlər 13% təşkil edir.

"İndi baza təhsili 9 illikdir. Ancaq 9-cu sinfi başa vurduqdan sonra şagirdin təhsilini davam etmək üçün nə yaşı uyğun gəlir, nə də peşəkar proqrama qatılmaq üçün akademik hazırlıqları olur. Baza təhsilini 10 ilə qədər uzatmaqla dövlət üzərinə şagirdlərin əsaslı təhsil almasını təmin etmək öhdəliyini götürür", - deyə İ.Abuladze bildirib.

# MİXEİL BATİAŞVİLİ: "PEDAQOQLARIN ƏMƏK HAQQI 1500 LARİDƏN BAŞLAYACAQ"

Müəllimlərin əmək haqqı ilə bağlı detallar aprel ayının sonunda məlum olacaq. Əmək haqqının artması isə payızda baş verəcək. Bu haqda təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili nazirlikdə baş tutan mətbuat konfransında bildirib.

"Kvalifikasiya modulu üzərində əmək haqqı ilə bərabər çalışırıq. Apreldə planı sistemlə, kvalifikasiya və əmək haqqı ilə birgə təqdim edəcəyik. Aprelin sonuna qədər əmək haqqı siyasətimiz olacaq, bu ildən başlayacaq və illər ərzində davam edəcək. Məktəb proseslərinə aktiv olaraq qoşulmuş pedaqoqun ən az əmək haqqı 1500 laridən başlayacaq. May ayında necə olacağını, hansı sayda olacağını təqdim edəcəyik və bu ilin payızından da həyata keçirməyə başlayacağıq", - deyə M.Batiaşvili bildirib.

Qeyd edək ki, təhsil sistemində gedən reformalar çərçivəsində məktəbəqədər və ümumi təhsildə aparılan işlər və planlaşdırılan yeniliklər haqqında təqdimat nazirlikdə baş tutub və tədbirdə direktorlar və müəllimlər iştirak ediblər. Təqdimatı təhsil naziri Mixeil Batiaşvili, nazirin müavini İrina Abuladze və Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzin rəhbəri Berika Şukakidze edib.

# TƏHSİL NAZİRİ MƏKTƏB DİREKTORLARINI TƏNQİD EDİB



Təhsil, Elm, Mədəniyyət və İdman nazirliyində baş tutan təhsil reforması çərçivəsində planlaşdırılmış infrastruktur layihələrinin təqdimatı zamanı nazir Mixeil Batiaşvili məktəb direktorlarının məsuliyyətsizliyindən danışıb.

Onun sözlərinə görə, məktəblərdə nazirliyin müdaxiləsi ilə həll olunacaq problemlər mövcuddur. Ancaq elə məsələlər də var ki, yerindəcə asan şəkildə həll oluna bilər.

"Bizim iki istiqamətdə işimiz var, birincisi, Tbilisi və regionlarda infrastruktur baxımından edəcəyimiz, ikincisi isə, yerində nə edə bilərlər. Bunun üzərində çalışmalar çoxdur. Tez-tez elə hallarla rastlaşırıq ki, problem yalnız nazirliyin müdaxiləsindən sonra yerində həll olunur. Direktora bu lazım olmamalıdır. Bunun üçün məktəb direktoru tərəfindən yalnız xoş niyyət və daha çox məsuliyyət lazımdır. Çox hallarda biganəlik və məsuliyyətsizliklə qarşılaşırıq. Ona görə də bu baxımdan aktiv olaraq çalışacağıq və bizim nazirlik infrastrukturda nə baş verdiyi ilə bağlı çox aktiv şəkildə monitorinq həyata keçirirdi. Həmçinin məktəblərin infrastrukturunda nə baş verdiyini araşdırmaq üçün monitorinqə davam edəcəyik. "Kimsə tapşırıq verənə qədər, kimsə konkret qərar qəbul edənə qədər heç nə etməyəcəm" yanaşması bizim üçün qəti qəbul edilməzdir.

Direktorlar məsuliyyətli olmalıdırlar. Çünki bir çox problemlər yerində həll oluna bilər və nə paytaxtdan, nə də bələdiyyələrdən konkret qeydlərə ehtiyac qalmaz. Məktəb direktoru məktəbin iş prosesinə cavabdeh olan birinci şəxsdir", - deyə Mixeil Batiaşvili bildirib.

# MÜƏLLİMLƏRİN KREDİT BALLARI TOPLAMA SİSTEMİ LƏĞV OLUNUR

Müəllimlərin Peşəkar İnkişaf Mərkəzinin direktoru Berika Şukakidzenin bəyanatına görə, 2019-2020-ci tədris ilinin başlanğıcında müəllimlərin peşəkar inkişafı və qiymətləndirilməsi istiqamətində yeniliklər olacaq.

"Sxemin qiymətləndirilməsindən sonra məlum oldu ki, müəllimlər bürokratiyaya bürünmüşdülər və sənədlərin hazırlanması ilə məşğul olaraq yüklənirdilər, şagirdlər isə diqqətdən kənar qalırdı. Ancaq sxemin müsbət tərəfi də var idi. Müəllimlər inkişafa aktiv şəkildə qoşulmuşdular.

İlk dəyişiklik kredit ballarının toplanması sisteminin ləğvi ilə bağlıdır. Status qazanmaq və saxlamağın iki müxtəlif sistemi var, amma çalışacağıq ki, 2019-cu ilin sonuna qədər bu prosesə başlayanlara mane olmayaq", - bildirib B.Şukakidze.

**I mərhələ: 2019-2020-ci tədris ilinin başlanğıcı.**

"Müəllim peşəsini tənzimləmə qaydası" təsdiqlənəcək.

- Kredit ballarının toplanması sistemi ləğv olunacaq və keçici mərhələlər müəyyən olunacaq: status qazanmaq üçün olan kredit ballarının tanınması müddəti olaraq 2018-2019-cu tədris ilinin sonu müəyyən edilib; Müəllim statusunun saxlanılması 31 dekabra qədər peşəkar inkişaf yolu ilə həyata keçirilir.
- Xüsusi tədrisə ehtiyacı olan şagirdlərin müəllimlərinin qiymətləndirilməsi sistemi təsis ediləcək.
- Özünü qiymətləndirmə və portfolionun yüklənməsi öhdəliyi ləğv olunacaq (məsləhət şəklində qalacaq).
- Müəllim statusu qazanmaq üçün statusa uyğun kvalifikasiya imtahanı qəbul olunacaq.
- Peşəyə kadrların daxil olması hərtərəfli/tezləşdirilmiş yolla mümkün olacaq.
- 2019-cu ilin yazından peşəkar inkişaf sistemi mərkəzləşdiriləcək.

**II mərhələ: 2020-2022-ci illər.**

- Məktəblərin daxili keyfiyyətinin idarəsi üzrə fərqli modellər və alətlər təsdiqlənəcək.
- Məktəb hazır olduğu halda keyfiyyət idarəsi üzrə məktəb sistemini hazırlayacaq.

# MƏKTƏBLƏRDƏ MƏSLƏHƏTÇİ ŞURALARI YARADILACAQ

Təhsil reforması çərçivəsində təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili müavini Natia Zedqenidze və Mandatur Xidmətinin rəhbəri Qela Qeladze ilə birgə "Təhlükəsiz məktəb" layihəsini ictimaiyyətə təqdim edib.

Təhlükəsizlik qaydalarına əsasən, hər bir məktəbdə Məsləhətçi Şuranın yaradılması vacibdir. Şura prevensiyaya və məktəbin təhlükəsizliyi komponentinə istiqamətlənmiş olacaq.

Şura üzvləri məktəb direktoru və ya direktor müavini, mandatur, pedaqoji şuranın nümayəndəsi, qəyyumlar şurasının nümayəndəsindən ibarət olacaq, lazım olan halda isə tərkibə Təhsil Nazirliyi və Mandatur Xidmətinin nümayəndələri, valideyn və şagird əlavə olunacaq.

Şura il ərzində ən azı 4 dəfə toplanmalı, təhlükəsizlik komponenti hissəsində məsləhətlər planlaşdırmalı, mövcud riskləri qiymətləndirməli, hansı məktəbdə hansı tədbirlərin planlaşdırılacağını müəyyən etməli, sonra isə məsləhətlər verməlidir.



**SƏHİFƏNİ HAZIRLADI: AYNURƏ ƏLİYEVA**

# GÜRCÜSTANIN 22 BƏLƏDİYYƏSİNDƏ 27 MƏKTƏBİN TİKİNTİSİNƏ VƏ 31 MƏKTƏBİN ƏSASLI TƏMİRİNƏ BAŞLANILIR



Gürcüstanın Regional İnkişaf və İnfrastruktur Nazirliyinin Bələdiyyə İnkişafı Fondu məktəblərin inşası ilə bağlı açıq qapı günü keçirib və tikinti şirkətlərinə elan olunacaq tenderləri əvvəlcədən təqdim edib.

Fond 22 bələdiyyədə 27 məktəbin inşasına başlayır. Layihə Gürcüstan hökumətinin maliyyəsi ilə həyata keçirilir və dəyəri təqribən 68 milyon laridir.

Açıq qapı günündə baş nazirin müavini, regional inkişaf və infrastruktur naziri Maia Tskitişvili, təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili və Bələdiyyə İnkişafı Fondunun icraçı direktoru Giorgi Şenqelia iştirak ediblər.

"Bu gün inşaat sektoru ilə artıq ənənəyə çevrilmiş görüşümüz baş tutdu. Açıq qapı günündə inşaat şirkətlərini yaxın gələcəkdə tender elan edəcəyimiz layihələrlə tanış etdik. Bu, təhsil sahəsində cari ildən həyata keçirəcəyimiz infrastruktur layihələrinin bir hissəsidir. Bu il təhsil sahəsində infrastruktur layihələrinin sayı ikiqat artıb. Təhsil Nazirliyi və İnfrastruktur Nazirliyi arasında memorandum imzalanıb, onun əsasında bələdiyyələr dövlətdən əlavə maddi dəstək alacaqlar. Həmin maddi dəstəklə məktəblərin kiçik təmir işləri həyata keçiriləcək. Ümumilikdə bunların hamısı məktəblərdə yüksək standartın yaranmasını təmin edəcək və tədris prosesinin daha komfortlu mühitdə keçirilməsinə dəstək olacaq", - deyə M.Tskitişvili bildirib.

Bələdiyyə İnkişafı Fondunun məqsədi tender prosedurlarını daha da şəffaflaşdırmaq və effektli etməkdir. Maraqlanan şirkətlərin tender elan olunana qədər layihələrlə daha yaxşı tanış olmaq, yaxşı hazırlaşmaq imkanı var idi.

27 məktəbdən əlavə Bələdiyyə İnkişafı Fondu 2019-2020-ci illərdə Avropa Mərkəzi Bankının (CEB) və Şimali Ekoloji Maliyyə Korporasiyasının (NEFCO) maliyyə dəstəyi ilə 31 məktəbin bərpası və enerji effektivliyi komponentinin gücləndirilməsini planlaşdırır. Həmçinin Gürcüstan hökumətinin maliyyə dəstəyi ilə onlarla məktəbin bərpası planlaşdırılır. Həmin məktəblər arasında Adigeni bələdiyyəsinin Zarzma və Moxe ictimai məktəblərinin bərpası da var.

Maia Tskitişvilinin bildirdiyinə görə, məktəblərin infrastruktur ehtiyacları Gürcüstan miqyasında araşdırılıb, onların bərpası dağlıq regionlarda da planlaşdırılır.

"Təhsil Nazirliyi ilə əməkdaşlıqla yeni məktəblərin tikilməsinə və ya məktəblərin əsaslı təmirə ehtiyacı olan regionları seçdik. Təəssüf ki, bir neçə kəndin uşaqları bir məktəbə getməli olurlar. Çalışırıq ki, bizim coğrafi əhatəmiz maksimum dərəcədə təmin olunsun, çünki bütün regionlara məktəb lazımdır. Dağlıq regionlar da bizim diqqət mərkəzimizdədir. Məktəblərin bərpası və yeni məktəblərin tikilməsi bütün regionlara aiddir", - bildirib M.Tskitişvili.

# GÜRCÜSTANDA 20 YANVAR ŞƏHİDLƏRİNİN YAXINLARINA YARDIM EDİLİB



Gürcüstanın azərbaycanlıların yığcam yaşadığı rayonlarında 20 Yanvar faciəsində şəhid olan, əslən Gürcüstandan olan azərbaycanlıların xatirəsi yad edilib.

"Report"un Gürcüstan bürosu xəbər verir ki, Azərbaycanlı İş Adamları Birliyinin (AZEBİ) üzvləri Marneuli, Bolnisi, Qardabani və Saqareco rayonlarında yaşayan şəhid ailələrinə baş çəkiblər.

AZEBİ-nin icraçı direktoru Nəriman Qurbanov, təşkilatın İdarə Heyətinin üzvü Sübhan Sarıyev şəhidlərin yaxınlarına başsağlığı verərək, Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçənlərin əziz xatirəsini ehtiramla anıblar.

Ailələrdə ehsan süfrələri ətrafında səmimi söhbət zamanı şəhidlər yad olunub, onların ruhuna dualar oxunub. Təşkilatın nümayəndələri ailələrin qayğıları ilə də maraqlanıb.

Təşkilat adından şəhidlərin yaxınlarına ərzaq yardımları paylanılıb. Şəhidlərin yaxınları göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, 20 Yanvar şəhidləri arasında əslən Gürcüstandan olan beş azərbaycanlı – Tengiz Turabov, Ələsgər Qayıbov, Rəşid İsmayılov, Vəfadar Eminov və İlqar Əhmədov da var. Şəhidlərin 4-ü Bakıda, Şəhidlər Xiyabanında, İ.Əhmədov isə doğulduğu Bolnisi rayonunun Faxralı kəndində dəfn olunub.

# QAÇAĞANDA İCTİMAİ MƏRKƏZ FƏALİYYƏTƏ BAŞLAYACAQ




Ədliyyə Nazirliyi Qaçağan kəndində "İctimai Mərkəz" inşa edəcək. Bu haqda məlumatı Marneuli merinin müavini Laşa Lobjanidze yanvarın 24-ü baş tutan bələdiyyə məclisinin iclasında bildirib. O deyib ki, Ədliyyə Nazirliyi meriyadan torpaq sahəsi ayırmağı tələb edib.

"Qaçağanda 2700 kv.m. torpaq sahəsi ayrılıb və Ədliyyə Nazirliyinə verilib. Orada yaxın gələcəkdə "İctimai Mərkəz" tikiləcək. Sahə imkan yaradır ki, ərazidə istirahət parkı da qurulsun. Bu, ictimaiyyət üçün çox yaxşı olacaq", - deyə Laşa Lobjanidze deyib.

Ədliyyə Nazirliyi məsələ ilə bağlı bildirib ki, "İctimai Mərkəz" vasitəsilə əhali kənddən çıxmadan 200-dən artıq ictimai və özəl sektorun xidmətlərindən istifadə edə biləcək.

Mərkəzin istifadəçiləri Dövlət Xidmətlərinin İnkişafı Agentliyinin, Gürcüstanın Milli Arxivinin, Milli İctimai Reyestr Agentliyinin, Sosial Xidmət Agentliyinin və MMC "Mexanizator" şirkətinin xidmətlərindən istifadə edə biləcəklər.

Məlumat üçün qeyd edək ki, hazırda Gürcüstan miqyasında 60 "İctimai Mərkəz" fəaliyyət göstərir.

## MARNEULİDƏ NƏRİMAN NƏRİMANOVUN ADININ YAŞADILMASI TƏLƏBİ İLƏ AKSİYA KEÇİRİLİB



Marneuli şəhərində Azərbaycanın görkəmli dövlət xadimi və ədibi Nəriman Nərimanovun adının yaşadılması tələbi ilə aksiya keçirilib.

"24news.ge"nin yaydığı məlumata əsasən, Marneuli Mədəniyyət Evinin qarşısındakı parkda keçirilən tədbirdə fəal gənclər, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Aksiya təşkilatçılarından olan gənc fəal Azər Məmmədov tədbiri açaraq aksiyanın əsas mahiyyətini izah edib, eyni zamanda o, çıxışında Axalkalakidə erməni separatçısı Mixail Avakyana büstün qoyulmasını pisləyərək əhalinin bu hadisədən narahat olduğunu bir daha dilə gətirib.

Aksiya təşkilatçılarından olan digər gənc fəal Aygül İsayeva çıxışında bildirib ki, bu yaxınlarda İrakli Kveladze adlı şəxs mətbuata açıqlamasında Marneulidə N.Nərimanovun büstünün olduğu parka Merab Kostavanın adının verilməsi ilə bağlı yerli sakinlər arasında imza toplandığı və müraciətin rayon bələdiyyəsinə təqdim edildiyini deyib: "İrakli Kveladze həmçinin qeyd edib ki, parka M.Kostavanın adının verilməsindən sonra N.Nərimanovun büstünün yerinin dəyişdirilməsinə də ehtiyac yaranacaq. Biz buna qəti etirazımızı bildiririk və abidənin götürülməsinə heç vaxt yol verməyəcəyik".

Ziyalılar da çıxışlarında N.Nərimanovun Azərbaycan və Gürcüstandakı böyük xidmətlərindən danışaraq onun adının Gürcüstanda yaşadılması uğrunda mübarizəni yerli azərbaycanlıların mənəvi borcu adlandırıblar. İctimaiyyət nümayəndələri N.Nərimanovun büstünün yerləşdiyi parkın abadlaşdırılmasına da ehtiyac olduğunu diqqətə çatdırıblar.

Tədbirdə Marneuli rayon bələdiyyəsinin sədri Amiran Qiorqadzeyə ünvanlanmış müraciət oxunub. Sənəddə Mədəniyyət Evinin qarşısındakı parka N.Nərimanovun adının verilməsi, Qızılhacılı kənd ictimai məktəbinə böyük ədibin adının bərpa olunması tələb olunub.

Həmçinin bildirilib ki, ötən il avqustun 6-da Marneuli rayon rəhbərliyinə Mədəniyyət Evinə N.Nərimanovun adının verilməsi ilə bağlı müraciətə hələ cavab verilməyib.

Aksiyanın sonunda bələdiyyə sədrinə ünvanlanmış müraciətə imza toplanıb. Marneuli sakinləri müraciətə tezliklə müsbət cavab veriləcəyinə ümidvar olduqlarını ifadə ediblər.

## SAQARECODA MEYVƏ QURUSU ZAVODU İNŞA EDİLƏCƏK

Kaxeti bölgəsinin Saqareco şəhərində müasir standartlara uyğun, yüksək texnologiya ilə təchiz edilmiş meyvə qurusu istehsal edən zavod inşa ediləcək. Layihənin dəyəri 1 000 000 ABŞ dollarından çoxdur.

Yeni zavodun tikilməsi üçün Dövlət Əmlakı üzrə Milli Agentlikdən MMC "Geo-Orqanik" şirkətinə Saqarecoda 36785 kv.m. dövlət mülkü verilib. Müəssisə ildə minimum 120 ton məhsul istehsal edəcək və hazır məhsulu yerli və Avropa ölkələrinin bazarlarına çıxaracaq.

Qeyd edək ki, şirkət gələcəkdə meyvə çipsilərinin istehsalını da planlaşdırır. Xatırladaq ki, "Gürcüstanda istehsal et" dövlət proqramı çərçivəsində 2014-cü ildən ümumilikdə 435 layihə dəstəklənib, ümumi yatırım həcmi isə 1 milyard laridən çoxdur. Qeyd olunan layihələrlə ümumilikdə 16100-dən artıq yeni iş yeri yaranacaq.

## QARDABANİ BƏLƏDİYYƏSİNDƏ 2,2 KM-LİK TBİLİSİ-VELİ-QAÇİANİ-RUSTAVİ AVTOMOBİL YOLUNUN BƏRPASI BAŞA ÇATIB

Gürcüstanın Regional İnkişaf və İnfrastruktur Nazirliyinin Avtomobil Yolları Departamentinin sədr müavini Giorgi Sereteli Qardabani bələdiyyəsində dövlət əhəmiyyətli Tbilisi-Veli-Qaçiani-Rustavi avtomobil yolunun 2,2 km-lik hissəsində başa çatmış işlərlə tanış olub.

Müəssisənin məlumatına görə, layihə çərçivəsində 2,2 km-lik hissəyə asfalt-beton qatı tökülüb, yerli yollara birləşmələr və əhalinin həyətlərinə giriş hissəsi qurulub. Yol hərəkət işarələrinin qurulması və yolun şaquli işarələnməsi işləri həyata keçirilib.

Layihənin dəyəri 2 milyon laridən artıqdır. İşlər 2018-ci ilin iyun ayında başlayıb və dekabrda başa çatıb.

Həmçinin Tbilisi-Veli-Qaçiani-Rustavi avtomobil yolunda 2018-ci ildə mövcud olan keçidin bərpa işləri həyata keçirilib. Qeyd olunan yoldan istifadə edənlər artıq yenilənmiş yoldan və körpüdən istifadə edə bilərlər. Avtomobil Yolları Departamenti hazırda Kvemo Kartli regionunda 9 layihə həyata keçirir.

# AVTOMOBİLLƏRİN TEXNİKİ BAXIŞI HAQQINDA NƏLƏRİ BİLMƏLİYİK

**Texniki baxışdan nə zaman keçmək lazımdır?**

Hər şey avtomobilin qeydiyyat tarixindən asılıdır. Məsələn, əgər maşın mayın 10-da qeydiyyatdan keçirilibsə, yəni avtomobilin pasportunda qeydiyyat tarixi 10 may göstərilibsə, o zaman bu o deməkdir ki, texniki baxışdan keçirmək üçün son tarix məhz mayın 10-dur.

Əgər maşın fevralda alınıb və qeydiyyatdan keçirilibsə, o zaman tələsməniz lazımdır, texniki baxış müddətinə az qalıb. Texniki baxış tarixini "pti.ge" saytından dəqiqləşdirmək olar.

Maşınları yanvarda qeydiyyatdan keçmiş sürücülərin bəxti gətirməyib. İlin əvvəlindən artıq 9 mindən çox avtomobilsevər cərimələnib. Hamısı da eyni səbəbdən – texniki baxışın gecikdirilməsi.

**Texniki yoxlanış harada aparılır? Əlavə suallar yarandığı zaman kimə müraciət etmək lazımdır?**

Növbədə vaxt itirməmək üçün onlayn rejimdə qeydiyyatdan keçmək mümkündür. Bunu www.pti.ge saytında etmək olar. Ən uyğun texniki baxış mərkəzini də elə oradan seçə bilərsiniz. Qeydiyyatdan sonra mobil telefona mərkəzin dəqiq ünvanı, kontaktların təsdiqi və sizin sifarişinizin fərdi nömrəsi yazılmış sms gələcək.

Əgər internetin olmaması və ya başqa səbəbdən onlayn rejimdən yararlana bilmirsinizsə, sizə 14-84 nömrəli "qaynar xətt"in operatorları yardım edərlər. Bu nömrəyə zəng vurmaq pulsuzduz. Sadəcə nəzərə almaq lazımdır ki, şənbə və bazar günləri operatorlar işləmir, qalan günlərdə isə 9:00-dan 18:00-a qədər zəng vurmaq olar.

**Texniki baxış neçəyə başa gəlir?**

Minik maşınının texniki baxışı 60 lari, yük və sərnişin nəqliyyatının isə 100 laridir. Prosedurun ödənişini yalnız bank, internet və ya bankomatlar vasitəsilə eləmək mümkündür. Nəzərə almaq lazımdır ki, əlavə xərclər də ola bilər: əgər avtomobildə texniki baxış zamanı qüsurlar tapılarsa, o zaman onları aradan qaldırmaq lazım olacaq ki, bu da xərcsiz olmayacaq.

**Maşın ilk dəfədən texniki baxışdan keçməyə də bilər.**

Əgər avtomobildə qüsurlar aşkarlanarsa, onları 30 gün müddətində aradan qaldırmaq lazım olacaq. Bu müddətə çatdıra bilməsəniz, təkrar texniki baxış üçün yenidən minik avtomobili üçün 60 lari, yük və sərnişin nəqliyyatı üçün isə 100 lari ödəməli olacaqsınız.

**Texniki baxış zamanı nələr yoxlanılır?**

Xüsusi texniki reqlament mövcuddur, avtomobil onun şərtlərinə cavab verməlidir. Reqlamentə əsasən, əyləc, sükan idarəsi sistemi, fənərlər, daxili işıqlandırma, elektrik qurğuları, mehvər, təkərlər, şinlər, asmalıq, şassi və onun hissələri saz olmalıdır.

Bundan başqa, avtomobil ətraf mühiti normadan artıq çirkləndirməməlidir – işlənmiş qazın çıxması da yoxlanacaq, bundan başqa, işləyən zamanı səs həddini də aşmamalıdır.

Hərçənd deyirlər ki, texniki reqlament ola bilər ki, yumşaldılsın.

Söhbət bir neçə dəyişiklik haqda gedir. Ön şüşədəki zədələnmələrə münasibət daha loyal olacaq – yəqin hakimiyyət Gürcüstanda yolların ideal olmadığını və ön şüşəyə istənilən an qarşıdan gedən maşının təkərinin altından sıçrayan daş dəyə biləcəyini nəzərə alıb. Hazırkı reqlamentdə xırda cızıq və ya çata görə ön şüşənin dəyişdirilməsi nəzərdə tutulub ki, bu da çox baha başa gəlir.

Daha bir liberal dəyişikliyin avtomobilin "yan şüşələrinin tündləşdirilməsi" ilə bağlı olacağı gözlənilir. Həmçinin maşının kuzovunun zahiri görünüşünə də daha az fikir veriləcək – məsələn, zamaskalanmış, amma rənglənməmiş hissələr maşının texini baxış zamanı "brak" çıxarılmasına səbəb olmayacaq.

**Texniki baxışdan keçmək üçün hansı sənədlər lazımdır?**

Yalnız avtobobilin pasportu, şəxsiyyət vəsiqəsi və texniki baxış xidməti xərcinin ödənməsini təstiq edən qəbz.

**Maşın texniki baxışdan keçməsə nə olacaq?**

Texniki baxışdan keçmək istəməyən sürücülər 50 lari, hüquqi şəxs və ya fərdi sahibkar isə 200 lari cərimə olunacaq.

Əgər belə bir maşını kiməsə sürməyə versəniz, o zaman həm maşının sahibi, həm sürücü 50 lari ödəməli olacaq. Əgər vəziyyəti düzəltməyə çalışmasanız, hər növbəti ay 50 lari ödəməli olacaqsınız ki, bu da ildə 600 lari təşkil edir. Cərimə ay ərzində ödənilməlidir.

Cərimə ödəyən zaman əlavə 500 lari də hesablanacaq. Əgər bu cəza da səmərəsiz olsa, o zaman sürücü yarım il müddətinə sürücülük vəsiqəsindən məhrum olunacaq.

Yanvarın 14-dən "texniki baxışı sevməyənlərin" həyatı mürəkkəbləşib – Gürcüstan yollarında "ağıllı kameralar" işə düşüb, onlar ön şüşədə texniki baxışdan keçdiyini təsdiqləyən talonu asanlıqla görə bilir.

**Sağ sükanlı maşınların sürücüləri nə etsin?**

Başqaları nə edirsə, elə onu. Qanun hamı üçün eynidir.

Sağ sükanlı maşınlar bütün digər minik maşınları kimi texniki yoxlamadan keçəcək. Sağ sükanlı maşınların sahibləri əlavə olaraq fənərlərin işıq axınının istiqamətini korrekta etməli olacaqlar. Bütün maşınlara yanaşma eynidir – əsas odur ki, avtomobil texniki tələblərə cavab versin.

İlkin istehsalda sağ sükanlı olan, amma sonra sükanı sola keçirilən maşınlara münasibətdə də eyni qaydalar keçərlidir. Qeyd etmək lazımdır ki, əgər sükanı sağdan sola keçirmək qərarı alınıbsa, bunu texniki baxışa qədər etmək lazımdır, çünki texniki baxışdan keçiriləndən sonra sükanın yerini dəyişmək qəti qadağandır. Hətta bu cür maşın növbəti texniki baxışa buraxılmaya da bilər.

**Bəs əgər maşına qaz balonu quraşdırılıbsa?**

Qazla işləyən maşınlar üçün də texniki baxış mütləqdir. Bu cür maşınlar xüsusi akkreditasiya olunmuş yerdə texniki baxışdan keçiriləcək.

**Texniki baxışdan nə zamandan bir keçmək lazımdır?**

Əgər bu il bütün avtomobillər qeydiyyat tarixi üzrə texniki baxışdan keçirilsə, o zaman gələn ildən texniki baxışdan keçmək üçün tarix avtomobilin istehsal tarixinə görə təyin ediləcək. Konkret prosedur isə aşağıdaki kimi reqlamentləşdirilib: əgər minik maşınının istehsalından 4 ildən az vaxt keçibsə, istehsal tarixindən tam 4 il keçəndən sonra texniki baxışa ehtiyac olacaq.

İstehsal müddəti 4 ildən 8 ilə qədər olan maşınlar iki ildə bir dəfə texniki baxışdan keçməlidir.

8 ildən artıq olan maşınlar hər il texniki baxışdan keçirilməlidir. Məsələn, əgər maşın 2005-ci ildə istehsal olunubsa, o zaman hər il texniki baxışdan keçmək lazımdır, çünki 8 ildən artıq edir – istehsal tarixindən 14 il ötür.

**Texniki təftiş kimə şamil olunmur?**

Tranzit nömrə nişanlı, gömrükdən keçməmiş avtomobillərə. Texniki baxış motosikletlər üçün də lazım deyil. Eyni zamanda, 1960-cı ilə qədər istehsal olunmuş, istehsaldan çıxarılmış modellərə, tarixi dəyər elan olunmuş və ilkin vəziyyətində olan maşınlara, hərəkət etmək iqtidarında olmayan və eyni yerdə statik vəziyyətdə olan maşınlara, həmçinin zavod göstəricilərinə görə sürəti saatda 25 kilometrdən çox olmayan avtonəqliyyat vasitələrinə.



Sərnişin nəqliyyatına (8 və daha çox oturacaq yeri olan avtomobillər), misal üçün, "marşrut taksiləri"nə gəlincə, onlar üçün texniki baxış hər il nəzərdə tutulub. Əgər bu cür maşının istehsalından 5 ildən çox keçibsə, texniki baxışdan ildə iki dəfə keçilməlidir.

Eləcə də taksilər üçün. İstehsal tarixindən asılı olmayaraq, texniki baxış ildə iki dəfə keçilməlidir. Həmin tənzimləmə təcili tibbi yardım maşınlarına da şamil olunur.

İllik texniki baxış həm də yük avtomobilləri (3,5 ton və daha çox), qoşqular, yarımqoşqular (3,5 ton və daha çox) üçün nəzərdə tutulub.

**Gürcüstan vətəndaşı olmayanlar üçün.**

Vətəndaşlığın texniki baxışa heç bir aidiyyəti yoxdur. Əcnəbilər, Gürcüstan vətəndaşları kimi, eyni Gürcüstan yolları ilə hərəkət edirlər. Beləliklə, əcnəbilər də öz maşınlarını texniki baxışdan keçirməlidirlər.

**Texniki baxış nəyə lazımdır?**

Hakimiyyət əsas üç səbəb göstərir:

Birincisi – bu, Avropa İttifaqının tələbidir və Avropa standartlarına yaxınlaşmaqdır;

İkincisi – qəzaların və yollarda bədbəxt hadisələrin qarşısının alınması;

Üçüncüsü – təhlükəli avtomobil tüstüsünün ətraf mühiti çirkləndirməsinin azaldılması.

**Korrupsiya təhlükəsi istisna edilibmi?**

Qanuna görə, müştəri ilə texniki baxış mərkəzinin nümayəndəsi arasında nağd ödəmə yoxdur. Ödəniş banklar və terminallar vasitəsilə həyata keçirilir.

Bundan əlavə, yerində videomonitorinq aparılır, proses qeyd olunur və bu yazı 14 ay ərzində saxlanır.

Lakin buna şübhə ilə yanaşanlar güman edirlər ki, bu tədbirlər kifayət deyil və prosesin korrupsiya elementlərindən müdafiəsi üçün daha sərt vasitələr lazımdır.

**Maşını texniki baxışa mütləq onun sahibimi aparmalıdır?**

Xeyr, vacib deyil. Maşını dostuna, ərinə, arvadına, atana və s. etibar etmək mümkündür.

Bundan başqa, xüsusi xidmət mövcuddur – sifarişinizlə maşın texniki baxışa aparılır və bütün prosedurlar başa çatdıqdan sonra geri qaytarılır. Təbii ki, bunlar pulsuz edilmir. Bu halda siz vaxtınıza və əsəblərinizə qənaət etmiş olursunuz. Bu xidmətlərdən biri ilə "caru.ge" saytında tanış olmaq mümkündür.

Mənbə: JamNews

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 31 YANVAR 2019-CU İL/ №002 (82)

# Yeni YOL

yeni_yol@mail.ru İCTİMAİ QƏZET ეენი იოლი საზოგადოებრივი გაზეთი qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## GÜRCÜSTANDAN İXRAC ƏN ÇOX HANSI ÖLKƏLƏRƏ ARTIB

2018-ci ildə Gürcüstandan məhsulun ixracı 3,4 milyard dollar təşkil edib. Bu, 2017-ci ilin göstəricisindən 23% çoxdur. Ən çox ixrac isə Azərbaycana olub – 231 milyon dollar təşkil edib və ümumilikdə 2018-ci ildə Gürcüstandan Azərbaycana 503 milyon larilik məhsul daxil olub. Artımda ən çox hissə yüngül avtmobillərin reeksportuna (təkrar ixracı) düşür.

Belə ki, 2017-ci ildə Gürcüstandan Azərbaycana 88 milyon dollar dəyərində 4548 avtomobil, 2018-ci ildə 190 milyon dollar dəyərində 13047 avtomobil aparılıb.

İkinci yeri Ermənistan tutur. Gürcüstanın Ermənistana ixracı 75 milyon dollar artıb.

Üçüncü yerdə 72 milyon dollar artımla Bolqarıstan gəlir. Ümumilikdə Avropa İttifaqı ölkələrinə ixrac 75 milyon dollar artıb və 730 milyon dollar təşkil edib.

Rusiyaya isə 41 milyon dollar dəyərində ixrac artıb. Bu isə o deməkdir ki, ilin ümumi həcmi ilə 437 milyon dollarla Rusiya ikinci yeri tutur.

**Gürcüstan Milli Statistika Xidmətinə əsasən, 2018-ci ildə Gürcüstandan ixracın artdığı 20 ölkə (milyon dollarla)**

| Ölkələr | 2017-ci il | 2018-ci il | Artım |
|---|---|---|---|
| Azərbaycan | 272 | 503 | 231 |
| Ermənistan | 210 | 285 | 75 |
| Bolqarıstan | 187 | 259 | 72 |
| Ukrayna | 125 | 175 | 51 |
| Rusiya | 397 | 437 | 41 |
| Qazaxıstan | 52 | 91 | 39 |
| ABŞ | 122 | 160 | 38 |
| Qırğızıstan | 9 | 28 | 19 |
| Fransa | 27 | 45 | 18 |
| Türkmənistan | 22 | 39 | 18 |
| Özbəkistan | 64 | 80 | 16 |
| Türkiyə | 217 | 233 | 16 |
| Litva | 35 | 43 | 8 |
| BƏƏ | 37 | 46 | 8 |
| Niderland | 40 | 46 | 6 |
| Almaniya | 45 | 51 | 6 |
| İsveçrə | 72 | 77 | 6 |
| Yaponiya | 7 | 11 | 4 |
| Birləşmiş Krallıq | 13 | 17 | 4 |
| Belçika | 18 | 22 | 4 |

## GÜRCÜSTANDAN YÜNGÜL AVTOMOBİLLƏRİN REEKSPORTU 85,7% ARTIB

**Ölkələrə əsasən yüngül avtomobillərin ixracı ilə bağlı statistika:**

| Ölkələr | 2017-ci il | 2018-ci il |
|---|---|---|
| Azərbaycan | 4548 | 13047 |
| Ermənistan | 14362 | 28550 |
| Ukrayna | 6186 | 8024 |
| BƏƏ | 407 | 390 |
| Qırğızıstan | 71 | 1578 |
| Rusiya | 2718 | 1485 |
| Belçika | 162 | 155 |
| İsveçrə | - | 92 |
| Panama | 30 | 46 |
| Türkiyə | 19 | 62 |
| Finlandiya | 6 | 2 |
| İran | 328 | 72 |
| Tacikistan | 17 | 222 |
| İrak | 60 | 152 |
| Qazaxıstan | 32 | 188 |
| Çin | 154 | 25 |
| Sinqapur | - | 18 |
| Sloveniya | 1 | 14 |
| Bolqarıstan | 10 | 31 |
| Çexiya | 1 | 16 |
| Almaniya | 27 | 49 |
| Monqolustan | - | 9 |
| Türkmənistan | 2 | 27 |
| Sudan | 15 | 40 |
| Özbəkistan | 3 | 4 |
| Kolumbiya | 1 | 6 |
| Albaniya | 3 | 20 |
| ABŞ | 37 | 23 |
| Birləşmiş Krallıq | 18 | 10 |
| Niderland | 21 | 3 |



Gürcüstandan xaricə yüngül avtomobillərin reeksportu (təkrar ixracı) artıb. Milli Statistika Xidməti tərəfindən verilən məlumata əsasən, 2018-ci ildə Gürcüstandan xaricə 54502 avtomobil aparılıb. Bu isə 2017-ci illə müqayisədə 85,7% çoxdur. 2017-ci ildə avtomobillərin reeksportu 29346 ədəd təşkil edib. Maşınların reeksportundan gələn gəlir isə 2018-ci ildə 408936 milyon dollar, 2017-ci ildə isə 234810 milyon dollar təşkil edib.

Gürcüstandan avtomobillərin reeksportunda Ermənistan birinci yeri tutur. 2018-ci ildə Ermənistana 28550, 2017-ci ildə isə 14362 avtomobil aparılıb. İkinci yerdə Azərbaycandır. Ötən il Gürcüstandan Azərbaycana 13047, 2017-ci ildə isə 4548 avtomobilin reeksportu həyata keçirilib.

Qeyd edək ki, ötən il 2017-ci illə müqayisədə Gürcüstandan Rusiyaya avtomobilin reeksportu azalıb. 2017-ci ildə bu göstərici 2718 avtomobili təşkil edirdisə, ötən il avtomobillərin sayı 1485 olmaqla azalıb.

## FAO GÜRCÜSTANA 2 MİLYON AVRO MƏBLƏĞİNDƏ MALİYYƏ YARDIMI AYIRIB

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) Gürcüstana 2 milyon avro məbləğində maliyyə yardımı ayırıb. Bu haqda Gürcüstan hökumət administrasiyasından məlumat verilib.

Məlumatda bildirilir ki, bu vəsait Gürcüstanda kənd təsərrüfatının və kəndlərin inkişafı üçün nəzərdə tutulub.

Layihə çərçivəsində Gürcüstanda kəndlərin inkişafı üzrə dövlət siyasəti hazırlanıb. Bu siyasətə təbii ehtiyatlardan davamlı və səmərəli istifadə olunması, kənd təsərrüfatının ətraf mühitə ziyan vurmadan inkişaf etdirilməsi və digər məsələlər daxildir.

Əsas məqsəd Gürcüstanda rəqabətə davamlı kənd təsərrüfatı məhsulları istehsal etmək, fermerlərin hüquqlarını qorumaqdır.

## "GEOCELL" VƏ "MAGTİ" ŞİRKƏTLƏRİ TARİFLƏRİ BAHALAŞDIRIR

"Geocell" və "Magti" şirkətlərinin tarifləri bahalaşır. Ötən il "Geocell" şirkətini alan "Silknet"in yaydığı məlumata görə, yeni tarif martın 1-dən qüvvəyə minəcək.

"Martın 1-dən şirkət tarifdə dəyişikliklər planlaşdırır. Yeni qiymət siyasətinin nəticəsində telefon və mobil şəbəkə abonentləri daha yaxşı paket və artmış həcmdə mobil internet əldə edəcəklər", - "Silknet"in bəyanatında qeyd edilir.

Belə ki, martın 1-dən "Meti S" paketi 5 lari əvəzinə 7 lari, "Meti M" paketi 10 lari əvəzinə 15 lari, "Meti limitsiz" paketi isə 25 lari əvəzinə 30 lari olacaq.

"Magti" şirkətinin bəyanatına görə, 18 fevraldan istifadəçilər "Martivi 25"in əvəzinə, yenilənmiş "Martivi" alacaqlar. Qeyd olunan paket indikindən fərqli olaraq 5 lari baha, yəni 30 lari olacaq. Bahalaşmış "Martivi" paketinin çərçivəsində vətəndaşlar artmış mobil internet alacaqlar, yəni 1000 MB əvəzinə 1500 MB olacaq.

Hər iki şirkətin bəyanatında qeyd olunub ki, mobil internet standartlarının tarifi 70 tetridən 10 tetriyə qədər azalacaq.

Həmçinin şirkətlər mobil nömrə xidmətinə yeni qayda qoyurlar: xidmətə görə "Geocell"ayda 20 tetri, "Magti" isə 180 günə 1 lari tutacaq.

## "YAŞILAY CƏMİYYƏTİ"NİN TƏŞKİLATÇILIĞI İLƏ TBİLİSİDƏ GÜRCÜ DİLİNDƏ TAMAŞA NÜMAYİŞ ETDİRİLİB



Tbilisidə Akaki Xorava adına Aktyorlar Evində "Era" teatrının təqdimatında gürcü dilində "Bu yolun son dayanacağı" adlı tamaşa nümayiş etdirilib. Tamaşanın ssenari müəllifi və quruluşçu rejissoru Anar Rafiqoğludur. Rolları Rabil İsmayılov, Məndər Sərdarov, Ləman Məmmədova və Sali Ömərova ifa ediblər.

Tamaşa "Yaşılay Cəmiyyəti"nin "Gürcüstanda zərərli vərdişlərə qarşı sənət vasitəsi ilə maarifləndirilmə və təbliğat" layihəsi çərçivəsində Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) maliyyə dəstəyi ilə hazırlanıb.

"Yaşılay Cəmiyyəti"nin sədri Zviad Koçalidze bildirib ki, tamaşanın hazırlanmasında əsas məqsəd insanlar arasında yayılmış zərərli vərdişlərə qarşı əks-təbliğat aparmaqdır: ""Era" teatrı ilə əməkdaşlıqdan çox məmnun qaldıq. Kollektivi təbrik edirəm. Tamaşa azərbaycanlıların sıx yaşadığı Dmanisi, Bolnisi və Qardabani rayonlarında da Azərbaycan dilində nümayiş etdiriləcək".

Həmçinin teatrın foyesində insanlar arasında zərərli vərdişlərin törətdiyi təhlükələri özündə əks etdirən karikaturaların sərgisi də baş tutub.

## GÜRCÜSTANDAN MANDARİNİN İXRACI 28,9 MİN TONA QƏDƏR ARTIB



Cari ilin 15 yanvar göstəricilərinə görə, Gürcüstandan mandarinin ixracı 28955 ton artıb. Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən, bu, ötən ilin analoji dövrü ilə müqayisədə 29,4% çoxdur. Ötən il məhsulun ixrac həcmi 22306 ton idi.

"East Fruit"in yazdığına görə, cari mövsümdə Gürcüstandan mandarin ixrac olunan ölkələr arasında əsas tərəfdaş olaraq yenə də Rusiya qalır. Rusiyaya 19267 ton məhsulun ixracı həyata keçirilib. Qeyd olunan göstərici ümumi ixrac həcminin 66,8%-ni təşkil edir.

Rusiyadan əlavə Gürcüstandan 6280 ton (21,8%) mandarin ixracı Ukraynaya, 2690 ton (9,3%) Ermənistana, 261 ton (0,9%) Özbəkistana, 138 ton (0,5%) Qazaxıstana, 120 ton (0,4%) Belorusiyaya, 60 ton (0,2%) Qırğızıstana, 40 ton (0,1%) Latviyaya həyata keçirilib.

Bununla yanaşı Acarada ixrac məqsədi ilə standarta uyğun olmayan mandarinlərin alınması da həyata keçirilir. 2018-ci ilin 1 dekabrından 2019-cu ilin 14 yanvarına qədər yerli fermerlərdən 11855 ton mandarin alınıb. Bu isə ötən ilin analoji dövrü ilə müqayisədə 43,5% çoxdur.

Təsisçi: "Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər Musaoğlu
Yayım Direktoru: Hacı Bəkiroğlu
Qrafik dizayn: Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.